**UOT 32 (323)**

***Şərqiyyə İmaməli***
***AMEA Qafqazşünaslıq İnstitutunun***
***Ermənişünaslıq şöbəsinin elmi işçisi***
***iseqis@yahoo.com***

# ERMƏNİSTANDA SOSİAL-İQTİSADİ VƏZİYYƏT

***Xülasə***

*Məqalədə Ermənistandakı sosial-iqtisadi vəziyyət təhlil edilmişdir. Burada iqtisadi problemlər və onlara təsir edən amillər, sosial vəziyyət, ölkədəki yoxsulluq və işsizlik səviyyəsi, təhsil sahəsindəki problemlər, demoqrafiya və miqrasiya prosesləri araşdırılmışdır.*

*Təhlillər göstərir ki, son zamanlar Ermənistanda baş verən dərin sosial-iqtisadi dəyişikliklər və sarsıntılar erməni cəmiyyətinin sosial-psixoloji mənzərəsinə xeyli təsir göstərmişdir. Sosial və iqtisadi sahədə həyata keçirilən bütün tədbirlərə və cəhdlərə baxmayaraq lazımi nəticə əldə etmək mümkün olmamışdır.*

***Açar sözlər**: Ermənistan, sosial-iqtisadi vəziyyət, işsizlik, yoxsulluq, təhsil, demoqrafiya, miqrasiya*

## *Giriş*

Bazar iqtisadiyyatı şəraitində dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətin səmərəliliyi cəmiyyətin mövcud sosial-iqtisadi strukturundan, onun keyfiyyət xarakteristikalarından əhəmiyyətli dərəcədə asılıdır. İnsan kapitalı səviyyəsi yüksək olan ölkələrdə sosial-iqtisadi islahatlar daha uğurla həyata keçirilir. Cəmiyyətin sosial-iqtisadi strukturunun və onun inkişaf dinamikasının düzgün müəyyənləşdirilməsi həyata keçirilən dövlət siyasətinin səmərəli olmasının əsas şərtlərindən biridir. Hər hansı bir ölkədə insanları düşündürən, onları narahat edən və həlli vacib olan problemlər cəmiyyətin struktur problemlərini müəyyənləşdirir.

Sosial vəziyyətin ölçüləri dedikdə, əhalinin həyat səviyyəsi, maddi rifahı, həyat tərzi və həyat keyfiyyəti göstəriciləri və s. nəzərdə tutulur. Bütün bunlar nəzərə alınaraq məqalədə Ermənistandakı sosial siyasət və ona təsir edən amillər – iqtisadi vəziyyət, sosial və demoqrafik problemlər araşdırılmışdır.

Müstəqilliyinin elan edilməsindən sonrakı illərdə Ermənistan iqtisadiyyatını yaranmış yeni tələblərə uyğun şəkildə qurmağa çalışırdı. Lakin belə bir zamanda iqtisadi strukturlar hələ də başqa dövlətin nəzarəti altında qalırdı. İqtisadiyyatı qonşu dövlətlərin hər birindən çox zəif olan Ermənistan iqtisadiyyatını inkişaf etdirməyə çalışsa da istədiyinə nail ola bilməmişdir. Pozulmuş iqtisadi əlaqələrini bərpa etmək üçün tranzit ölkə kimi çıxış edə biləcək Azərbaycan Respublikasına qarşı təcavüzkarlıq siyasətinə görə blokadaya düşməsi Ermənistanı böyük imkanlardan məhrum etdi.

Beləliklə, Ermənistan düşmüş olduğu ağır iqtisadi böhrandan çıxmaq üçün daxili və xarici, o cümlədən iqtisadi siyasətini düzgün şəkildə həyata keçirə bilmir.

***Ermənistanda iqtisadi vəziyyət***

2008-2009-cu illərdə dünya dərin maliyyə və iqtisadi böhranla üzləşdi. Ermənistan böhranın təsirindən qaça bilmədi və iqtisadiyyatda 14,1% eniş oldu. 2020-ci ildə Ermənistanda baş verən iqtisadi böhranın iki əsas səbəbi var idi:

1) Covid-19 pandemiyasının başlanması

2) İkinci Qarabağ müharibəsinin baş verməsi

2017-2019-cu illər ərzində ÜDM-un real artım sürəti müvafiq olaraq 7,5, 5,2 və 7,6% təşkil etmişdir. Əgər Ermənistan Respublikasında 2008-ci ildə iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi inşaat tikinti sektoru idisə 2019-cu ildə həmin yeri xidmət sektoru tutdu. Xidmətlərin ÜDM-da payı 2019-cu ildə 2008-ci il ilə müqayisədə 18,1% artmışdır. 2019-cu ildə tikinti səviyyəsi 2008-ci il ilə müqayisədə 19% azalmışdır. Lakin, 2020-ci ildə Covid-19 və İkinci Qarabağ müharibəsi nəticəsində ÜDM göstəricisi 2019-cu il ilə müqayisədə kəskin azalmış, 7,4% təşkil etmişdir. Bu əsasən xidmət və ticarət sektorlarının azalması hesabına baş verdi və ÜDM-un azalmasına səbəb oldu [1].

Koronavirus pandemiyasının yayılmasının qarşısını almaq üçün Ermənistan hökumətinin tətbiq etdiyi məhdudiyyətlər səbəbindən aprel ayında iqtisadiyyat kəskin şəkildə tənəzzül etdi. 2020-ci ilin sentyabr ayının sonlarında pandemiyanın ikinci dalğası və İkinci Qarabağ müharibəsinin mənfi iqtisadi təsirləri səbəbindən ilin sonunda Ermənistan iqtisadiyyatı daha da çökdü. Müharibə iqtisadi böhranı daha da dərinləşdirdi, əhəmiyyətli dərəcədə maddi və insani itkilərə səbəb oldu, iqtisadi artım potensialı daha da azaldı. Fakt budur ki, iqtisadi artım səviyyəsinin aşağı olması cəmiyyətin müxtəlif təbəqələri arasında gəlirlərin qeyri-bərabər paylanmasına gətirib çıxarır. Bu da insanların həyat səviyyəsinin yaxşılaşdırılması siyasətinin səmərəliliyinə mənfi təsir göstərir. 2018-ci ildə yeni hökumətin qurulmasından sonra yaranmış problemlər həll olunmadı, daha da dərinləşdi.

ÜDM artımının dinamikası və quruluşu da tələb baxımından narahatlıq doğurur. Belə ki, son illərdə iqtisadı artımın təmin edilməsində investisiya kəskin şəkildə azalmış, iqtisadi artım istehlak xərclərinin artması ilə formalaşmışdır. 2018-ci il ilə müqayisədə 2019-cu ildə ümumi investisiya 14,3% azaldı. Bunun əvəzinə 2019-cu ildə istehlak 2018-ci il ilə müqayisədə 11,7% artdı.

2020-ci il Ermənistan Respublikası tarixində 1994-cü ildən bəri ən pis dövr hesab edilə bilər. Bu zaman ölkədəki vəziyyətə (iqtisadi, siyasi və sosial komponentlər baxımından) Covid-19 pandemiyası və İkinci Qarabağ müharibəsindəki ağır məğlubiyyət təsir göstərdi. Xarici və daxili siyasi qeyri-sabitlik, gələcəyə dair qeyri-müəyyənliyin kəskin artması ilə müşayiət olunan çətin sosial-iqtisadi vəziyyət bu günə qədər davam edən iqtisadi böhrana səbəb oldu. Digər tərəfdən, iqtisadi böhran ölkədə siyasi böhranla, eyni zamanda növbədənkənar seçkilərdən sonra daxili siyasi gərginliyin artması ilə müşayiət olunurdu.

2020-ci il üçün dövlət borcu və ÜDM nisbəti qanunla müəyyən olunmuş 60% həddini aşaraq 63,5% təşkil edirdi. 2021-ci ilə olan məlumata görə, bu göstərici 70%-ə yaxındır ki, bu da ölkədə vəziyyətin xeyli ağır olduğunu göstərir. Təbii ki, maliyyə

cəhətdən qeyri-sabitliyin mövcud olması ölkədəki ağır sosial-iqtisadi vəziyyətdən qaynaqlanırdı. Buna görə də indiki vəziyyətdə böhranın əhəmiyyətli dərəcədə dərinləşməsinə töhfə verən bir çox ön şərtlər vardır ki, bunun nəticəsində böhran iqtisadi çöküşə çevrilə bilərdi. Başqa sözlə, cəmiyyətdə dövlətin üzləşdiyi problemlərə artıq cavab verə bilməyəcəyi və iqtisadi sistemin iflic olacağı qorxusu var idi. Çünki bir nöqtədə iqtisadi çöküş artıq geri dönülməz ola bilərdi. Nəticədə 2020-ci ildə dövlət büdcəsində proqnozlaşdırılan 4,9% iqtisadi artımdan fərlqi olaraq 2020-ci ildə 7,4% iqtisadi geriləmə qeydə alındı [1].

Yaranmış ağır sosial-iqtisadi vəziyyətin qarşısını almaq üçün Ermənistan hökuməti böhran əleyhinə tədbirlər paketi hazırladı və həyata keçirdi. Paketə daxil olan böhran əleyhinə maliyyə tədbirlərinin dəyəri 164,8 milyard dram və ya ÜDM-un 2,7%-ni təşkil etmişdi.

2020-ci ildə Ermənistanın dövlət büdcəsinin ümumi gəlirləri əvvəlki ilə nisbətən 0,3% azalaraq 1560,7 milyard dram, vergilər və rüsumlar 5,4% azalaraq 1385,2 milyard dram təşkil etmişdi. Digər tərəfdən 2020-ci ildə böhran əleyhinə tədbirlərə və hərbi əməliyyatlara ehtiyac olduğu üçün dövlət büdcəsi xərclərində kəskin artım oldu. Nəticədə 2020-ci ildə dövlət büdcəsi xərclərinin ÜDM-da payı 30,6% olmaqla 5,8% artdı. Eyni zamanda cari xərclərin payı 5,1% artaraq 27%-ə, əsaslı xərclərin payı isə 3,7%-ə yüksəldi (bunun 0,9%-i İkinci Qarabağ Müharibəsi səbəbindən əlavə hərbi xərclər idi). 2020-ci ilin nəticələrinə görə dövlət büdcəsinin xərcləri əvvəlki ilə nisbətən 16,3% artaraq 1894,6 milyard dram təşkil etdi.

***Dövlət borcu***

2017-ci ildə hazırlanmış yeni maliyyə qaydalarına əsasən 2020-ci ildə borc yükü kəskin artaraq ÜDM-un 63,5%-nə çatdı. 2019-cu ilin sonu ilə müqayisədə 2020-ci ildə borc yükü 13,4% artaraq, Ermənistan qanunvericiliyi ilə icazə verilən həddi aşdı. 2021-ci ilin birinci rübünün məlumatlarına görə, eyni zamanda BVF-nun 2021-ci il ÜDM proqnozlarına əsaslanaraq bu nisbət artıq 68,2%-dir və BVF-nun borc dayanıqlılığının qiymətləndirilməsi metodologiyasında inkişaf etməkdə olan ölkələrin istifadə etdiyi 70%-lik risk həddinə olduqca yaxındır. 2020-ci ildə borc yükünün artması İkinci Qarabağ müharibəsinin və Covid-19 pandemiyasının səbəb olduğu ağır iqtisadi vəziyyətlə bağlı idi.

Son illərdə dram ilə alınan borc səviyyəsi artmaqda davam edir(2017-ci ilin sonu ilə müqayisədə 2021-ci ilin mart ayında 4,2% artaraq 22,6%-ə yüksəldi) və bu da borc faizi ödənişlərinin artmasına səbəb olur. Nəticədə son 3 ildə büdcə xərclərinin 9%-dən çoxu dövlət borcuna xidmətə yönəldilmişdir. Beləliklə, 2021-ci ilin mart ayında ABŞ dolları 2020-ci ilin fevral ayına nisbətən 10% artmış və orta hesabla 528 dram təşkil edirdi. Avro 2020-ci ilin fevral ayı ilə müqayisədə 20% bahalanmış və 2021-ci ilin mart ayında orta hesabla 628 dram idi. Devalvasiya dövlət borcunun kəskin artmasına təsir etdi və dramın ABŞ dolları və avro qarşısında məzənnə riskinin yığılmasına və borc yükünün artmasına səbəb oldu.

***Sosial problemlər***

Sosial vəziyyət dedikdə, əhalinin və onun müxtəlif təbəqələrinin həyat fəaliyyətinin xarakteristikası nəzərdə tutulur. Sosial vəziyyətə əhalinin həyat səviyyəsi, maddi rifahı və həyat keyfiyyəti göstəriciləri aid edilir. Əhalinin həyat səviyyəsi dedikdə, onların əldə etdikləri gəlirlər nəzərdə tutulur. Əhalinin həyat keyfiyyətinə onların sosial xidmətlərlə tam şəkildə təmin edilməsi, əhalinin təhsil səviyyəsi, müasir səhiyyə xidmətləri ilə tam şəkildə təmin olunması daxildir.

Sosial problemlər isə cəmiyyətin əziyyət çəkdiyi və əhalinin bəzi hissəsinə digərlərindən daha çox təsir edən çətinliklərdir. Sosial problemlərə misal olaraq yoxsulluq, işsizlik, irqi və cinsi ayrı-seçkilik, narkotik maddə asılılığı, təhsil sahəsindəki problemlər və s. göstərmək olar. Sosial siyasətin əsas tərkib hissələrindən biri də demoqrafik siyasətdir. Demoqrafik problemlər birbaşa əmək bazarına təsir göstərir.

Ermənistanda baş verən dərin sosial-iqtisadi dəyişikliklər və sarsıntılar erməni cəmiyyətinin sosial-psixoloji mənzərəsini xeyli dəyişdirmişdir.

***Yoxsulluq***

Yoxsulluq hələ Sovet dövründə Ermənistanda geniş yayılmış, 18-20% təşkil edirdi. Yoxsulluğun artmasına 1988-ci ildə 400 min insanın fəlakətinə səbəb olan zəlzələ və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi daha çox təsir göstərdi. Köhnə fabrik və zavodların fəaliyyətsizliyi iqtisadiyyatın çöküşü, dərin enerji və iqtisadi böhran kütləvi işsizliyə səbəb oldu.

1991-1995-ci illər Ermənistan üçün ən böhranlı illərdən hesab oluna bilər. Bu illərdə yoxsulluq həddindən aşağı yaşayan insanların sayı 70-80% təşkil edirdi. Eyni zamanda ən böyük mühacirət axınları bu illərdə baş verdi. Təxminən 600 min insan Ermənistanı tərk etdi. 1996-cı ildən sonrakı on ildə yoxsulluq səviyyəsi nisbətən sabitləşdi. Lakin yoxsulluğun aradan qaldırılması siyasətində ciddi çatişmazlıqlar var idi. Bu çatışmazlıq ondan ibarət idi ki, ölkədə mövcud olan yoxsulluq səviyyəsi sosial yardımlar hesabına azaldılmağa çalışılırdı. Buna görə də 2008-ci ildə başlayan qlobal maliyyə böhranı yoxsul insanların sayının bir neçə ay ərzində kəskin artmasına səbəb oldu. Cəmi bir il ərzində qeydiyyata alınan yoxsulların sayı 6,5% artdı. 2010-cu ildə yoxsulluq səviyyəsi 35,8%-ə yüksəldi. İqtisadi artımın aşağı düşməsi uzunmüddətli yoxsulluğun azaldılması proqramlarının dondurulmasına, həssas ailələrə yardım siyasətinin məhdudlaşdırılmasına səbəb oldu. İqtisadi böhran 2011-ci ilə qədər davam etdi. Bu zaman yoxsulluq səviyyəsini azaltmaq mümkün idi. Lakin 2015-ci ildə yoxsulluğun səviyyəsi hələ 2008-ci il ilə müqayisədə 29,8% yüksək idi [2]

Yoxsulluq əsasən 3 səviyyədə təmsil olunur: yuxarı, aşağı və həddindən artıq yoxsul. Yoxsulluq mənzərəsi xüsusilə çoxölçülü yoxsulluğa nəzər yetirdikdə tamamlanır. Çoxölçülü yoxsulluq dedikdə yalnız gəlir yoxsulluğu deyil, eyni zamanda vətəndaşlara və ailələrə göstərilən xidmətdən məhrum olma səviyyəsi nəzərdə tutulur. Bu aşağıdakı 5 məhrumiyyətə görə qiymətləndirilir:

1. Əsas ehtiyaclar
2. Mənzil

3. Təhsil
4. Məşğulluq
5. Sağlamlıq

Əmək və Əhalinin Sosial Məsələlər Nazirliyinin Sosial Yardım departamentinin rəhbəri Asdyq Minasyan bildirir ki, yoxsulluq və çoxölçülü yoxsulluq haqqında məlumatları müqayisə edərkən, əhalinin 45-46%-nin sosial problemi olduğu qənaətinə gəlinir. Çoxölçülü yoxsulluq xüsusilə uşaqlar arasında yüksəkdir (64%). Ermənistanda hal-hazırda hər 3 uşaqdan biri yoxsulluq içində yaşayır. Uşaq yoxsulluğu 34,2%, həddindən artıq uşaq yoxsulluğu 2%-dir. Bu göstəriciyə eyni zamanda coğrafi qeyri-bərabərlik də təsir göstərir. Məsələn, Şirak regionunda uşaqların 50,9%-i yoxsulluq içərisində yaşayır [3].

2016-ci ildə Ermənistanda iqtisadi artım sürəti cəmi 0,2% artmışdı və ölkədə yoxsulluğun səviyyəsini azaltmaq üçün kifayət deyildi. 2016-ci ildə yoxsulluq 2015-ci ilə nisbətən 0,4% azalmışdı (29,8%-dən 29,4%-ə). Ermənistanda yoxsulluq səviyəsi paytaxt və regionlar üzrə xeyli dəyişir. Ermənistanda ən yoxsul rayon Araqaçodndur (51,4%). 2019-cu ilin statistik məlumatlarına görə İrəvanda yoxsulluq səviyyəsi 14,1% təşkil edir. Eyni zamanda Şirak (48,4%), Lori (30,1%), Qeğarkunik (43,5%), Kodayk (31,9%), Armavir (22,5%), Ararat (29,4%), Tavuş (25,6%), Vayoç Dzor (19,3%), Syunik (12,1%) regionlarında da yoxsulluq göstəriciləri qeyd olunmuşdur [4]

2019-cu ildə Ermənistanda yoxsulluq səviyyəsi 26,4% olmuşdur. Ermənistan Respublikasının Statistika Komitəsi "Ermənistanın sosial imici-yoxsulluq" adlı hesabatda bu barədə bildirmişdir.

Ermənistanda yoxsulluq 1996-cı ildən hesablanır. 2019-cu ildən etibarən Dünya Bankının yenidən işlənmiş metodologiyası, yəni dörd hədd üzrə yoxsulluğun qiymətləndirilməsi tətbiq olunur.

1. O şəxslər yoxsul hesab olunur ki, hər bir həddə-buluğa çatmış şəxsə düşən istehlak həddi 53,043 dramdır. Ermənistanda əhalinin 43,8%-i bu həddə uyğundur.
2. Orta səviyyədəki yoxsulların isə hər adambaşına düşən istehlak həddi 35,054 dram təşkil edir. Əhalinin 10,2%-i bu həddə uyğundur.
3. Həddindən artıq yoxsul və pis qidalanmaya uyğun olanlar üçün aylıq istehlak həddi 23,763 dram olanlardır. Əhalinin 1,4%-i həddindən artıq kasıb təbəqəyə aiddir. [4]

***İşsizlik***

1990-ci ildə Sovet İttifaqında işsizlik nisbəti 1-2% idi. Bazar iqtisadiyyatına keçilməsi iqtisadiyyatın inkişafına təsir göstərdi. Onlarla sənaye şirkəti bağlandı və əhalinin miqrasiya səviyyəsi artmağa başladı. 1991-ci ildə Ermənistanın müstəqilliyi elan olunduqdan sonra onun iqtisadiyyatının da strukturu dəyişdi, işsizlik 20%-ə çatdı. Məşğulluğun artırılması və işsizliyin azaldılması məqsədi ilə 2000-ci ildə məşğulluq sahəsinin tənzimlənməsi siyasəti həyata keçirilməyə başlandı. Hökumət tərəfindən məşğulluq strategiyası 2012-ci ildə hazırlandı. Bu sənəd 2013-2018-ci illər üçün nəzədə tutulmuşdu. 2014-cü ildə isə 2014-2025-ci illər üçün perspektivli inkişaf strategiyası təsdiqləndi. Bu strategiyanın məqsədi 2025-ci ildə Ermənistanda məşğulluq

səviyyəsini 71%-ə çatdırmaq və işsizliyi 10%-ə endirmək idi. Ancaq göstəricilərdən aydın olur ki, strategiyada nəzərdə tutulan səviyyəyə hələ də nail olunmamışdır. 2016-cı ildə Ermənistanda işsizlik təxminən 18,1% təşkil edirdi və əsas məqsəd bu göstəricini 16,5%-ə endirmək idi. Digər tərəfdən, məşğulluq nisbətinin 58,7%-ə yüksəldilməsi nəzərdə tutulurdu. Bu göstərici isə 50% idi.

Avrasiya İqtisadi Birliyinə daxil olan ölkələr arasında işsizlik baxımından ən yüksək göstəriciyə malik ölkələrdən biri Ermənistandır. İşsizlik səviyyəsi Ermənistanda 17%-dir. AİB ölkələrinin məşğulluq mərkəzlərində qeydiyyatdan keçən işsizlərin sayı iyunun sonunda 1 milyon 555 min nəfər olmuşdur. Xüsusilə 2021-ci il iyunun sonunda Ermənistanda 61,4 min işsiz məşğulluq mərkəzlərində qeydiyata alınmışdır. Ötən ilin eyni dövrü ilə müqayisədə bu göstərici 2% (1200 nəfər) artmışdır [5]. Ermənistanın əmək qabiliyyətli əhalisinin 17,8%-dən çoxu işsizdir. Yəni əmək qabiliyyətli 11 vətəndaşdan 2-si işsizdir.

Dünya Bankının və Milli Statistika Xidmətinin məlumatına görə, müstəqilliyin 26 ili ərzində Ermənistanda orta işsizlik səviyyəsi 21,7% təşkil etmişdir. Ölkədə ən yüksək işsizlik 2001-ci ildə – 35,9%, ən aşağı göstərici isə 2013-cü ildə 16,2% olmuşdur.

Ermənistan Dövlət Məşğulluq Agentliyinin 2021-ci il yanvar ayının məlumatına görə, işsizlərin əksəriyyəti qadınlardır. Onlar ümumi işsizlərin 64,7%-ni (və ya 40,2 min nəfər) təşkil edir. Gənc işsizlərin sayı 19,1% (və ya 11,9 min nəfər), əlilliyi olan işsizlərin sayı 3,9% (və ya 2,4 min nəfər)-dir. İşsizlər arasında gənclərin üstünlük təşkil etməsi ölkədəki əsas iş gücünün digər ölkələrə köç etməsinə səbəb olur [5]. 2017-ci ildə gənclər arasında işsizlik 30,3% təşkil edirdi. "Gənc nəsil təhlükədədir" adlı hesabatda qeyd olunur ki, işsizlik bütün dünyada əsas problemlərdən biridir. Hesabata görə, Ermənistanda bu sahə ilə məşğul olan siyasətçilər gənclərin 42,3%-dən işçi qüvvəsi kimi istifadə olunmasından, 16,8%-nii isə işsiz olmasından narahat olmalıdır. İnformasiya texnologiyaları sahəsində gənclərin məşğulluq səviyyəsi cəmi 3%-dir. Bu araşdırmalara görə kimya və sənaye sahəsində gənclərə ehtiyac olmasına baxmayaraq, bu sahə ilə az məşğul olurlar. [5]. Ümumiyyətlə, tələb və təklif arasındakı uyğunsuzluq Ermənistan əmək bazarında əsas problemlərdən biridir. Məsələn, 2018-ci ilin mart ayının məlumatına görə, bir vakant yer üçün 48 nəfər müraciət etmişdir. Ermənistanın əmək bazarında xüsusilə özəl sektora böyük tələbat vardır.

Ermənistanda məşğulluq səviyyəsini artırmaq üçün bir sıra dövlət mərkəzləri fəaliyyət göstərir. Bunlar Dövlət Məşğulluq Agentliyi və onun 51 ərazi orqanı, İrəvanda fəaliyyət göstərən Peşə Oriyentasiyası Metodik Mərkəzi və Gümrüdəki Gümrü əlillərinin reabilitasiya mərkəzidir. Məşğulluq sahəsində təkmilləşdirməni nəzərdə tutan məşğulluq haqqında qanun isə 2013-cü ildə qəbul edilmişdir.

### *Təhsil*

Müstəqilliyin elan edilməsindən sonrakı ilk illərdə Ermənistan hakimiyyətinin qarşısında dayanan əsas problemlərdən biri də sosial həyatın müxtəlif istiqamətlərinin müasirləşdirilməsi və dünya standartlarına uyğunlaşdırılması idi. Təhlillər göstərir ki, sosial sahədə həyata keçirilən bütün tədbirlərə və cəhdlərə baxmayaraq lazımi nəticə

əldə etmək mümkün olmamışdır. Ermənistan digər sahələrdə olduğu kimi təhsil sahəsində də addımlar atmışdr. Məktəblərdə əsas təhsil dili erməni dilidir. 1990-cı ildə qəbul olunmuş qərar ilə erməni dili rus dilli təhsili tamamilə əvəzləməyə başladı. Lakin bu qərar özü ilə bərabər bir sıra problemlər də gətirdi. Bunlardan ən başlıcası Ermənistanda müəllimlərin köklü dəyişikliklərə hazır olmaması idi. Nəticədə təhsilin keyfiyyəti aşağı düşməyə başladı.

Digər səbəb isə kurrikulumun köklü və birdən dəyişməsi nəticəsində tədris prosesində erməni dilində dərslik və material çatışmazlığı idi. Həmin dövrdə bu problemi aradan qaldırmaq üçün büdcədən məktəblərə ayrılan məbləğ kəskin azalmışdı və dərslik nəşrinə yönəldilmişdi. Məktəblərin bərpası və təmiri prosesi də təxirə salınmışdı, Ermənistan hökumətinin o vaxt müəyyənləşdirdiyi standartları tətbiq etmək, yeni laboratoriyalar qurmaq və texniki təchizatını təmin etmək mümkün olmamışdı.

Təhsil sisteminin ən vacib tərkib hissələri təhsilin məzmunu və məqsədidir. Ermənistanın təhsil sistemi indi də sovet ənənələrini davam etdirən tədris sisteminə malikdir. Yəni təhsil sisteminə tənqidi baxış, təhsilin məqsədi və məzmunu ilə bağlı mövqelərin inkişafı, bilik və düşüncə tərzində dəyişiklik etmək, təhsil alanların nəyi və nəyə görə öyrəndikləri ilə bağlı dəqiq bir mövqeyə sahib olmamaları təhsil sisteminin səciyyəvi cəhətləridir.

Erməni təhsil ekspertləri təhsil sistemində əsas problemlər kimi aşağıdakıları qeyd edirlər:

1. Orta və ali təhsil müəssisələrinin tədris proqramları arasında məntiq və məzmun əlaqəsinin olmaması;
2. Təhsil ənənələrinin olmaması və peşə seçimində məktəblərin çatışmazlığı;
3. Həm özəl, həm də dövlət tədris müəssisələrində təhsilin məzmunu və məqsədi barədə ümumi anlayışın olmaması.

Ermənistanda 2017-ci ildən icbari 12 illik orta təhsil sisteminə keçilmişdir [8]. Ermənistan parlamentində müzakirə nəticəsində “Təhsil haqqında” və “Xalq təhsili haqqında” qanunlara dəyişiklik edilmiş və icbari 12 illik təhsil qəbul edilmişdir. Parlamentdə səsvermə zamanı 85 nəfər lehinə, 27 nəfər bitərəf olmaqla qərar qəbul edilmişdir. Əslində qəbul olunan bu qanunun əsas məqsədi şagirdlərin məktəbləri erkən tərk etməsinin qarşısını almaq idi. Məcburi 9 illik təhsildən 12 illik təhsilə keçid çoxları tərəfindən razılıqla qarşılanmamışdır. Bir çox mütəxəssislər bu sistemə keçidin ciddi problemlərə səbəb olacağını və kəndlərdə sosial gərginliyi daha da artıracağını düşünürdü. Çünki bu, kənd yerlərindəki erkən nikah hallarına və oğlanların məktəbi tez bitirib ailənin təsərrüfat işlərinə kömək etməsi vəziyyətinə uyğun gəlmirdi [9].

Ölkədəki mürəkkəb sosial, iqtisadi və siyasi dəyişikliklər ali təhsil sisteminə ağır təsir göstərmişdir. Ermənistanın dövlət büdcəsindən təhsil sektoruna ayrılan vəsaitin azlığı, hökumət tərəfindən təhsil sisteminin lazımi səviyyədə dəstəklənməməsi təhsildə müxtəlif problemlər və qeyri-müəyyənlik yaratmışdır.

Ermənistanda minimum əmək haqqının çox aşağı olduğunu nəzərə alaraq qeyd etmək olar ki, təhsil sahəsindəki ödənişlər təhsili çoxu üçün əlçatmaz edir. Kasıb ailələr öz övladlarına ali təhsil verə bilmirlər.

Tələbələrin sayının ildən-ilə azalmasının səbəbləri aşağıdakı amillərlə bağlıdır:

- Miqrasiya;
- təhsildən çox gündəlik pul qazanmaqla məşğul olan yoxsul vətəndaşların sayının artımı;
- universitetlərin təhsil haqlarının çox yüksək olması və ölkədə mövcud olan sosial problemlərə görə illik təhsil haqqının ödənilməsinin çətinləşməsi;
- abituriyentlərin dövlətin təhsil sisteminə olan inamını itirməsi;
- müasir dövrün tələblərinə uyğun olaraq təhsilin sistemləşdirilməməsi;
- xarici universitetlərdə ali təhsilə üstünlük verilməsi;
- Ermənistan diplomlarının əksər ölkələrdə tanınmaması;
- tələbələrin öz ixtisaslarına uyğun iş tapa biləcəyinə inanmsızlığı.

Ali təhsilə marağın az olmasının digər bir səbəbi işlə təmin olunma problemidir. Ermənistan reallıqlarında tələbələrin universitetdən əmək bazarına keçidi çox çətin və süni maneələrlə doludur. Belə ki, iş axtararkən məzunlar bir sıra çətinliklərlə üzləşirlər. Bunlar əsasən təhsili olsa da müvafiq təcrübəsi olmayanların çox qarşılaşdığı bir problemdir. Praktiki bilikləri olmayan tələbələr iş tapmaqda çətinlik çəkir və ya ümumiyyətlə, iş tapa bilmirlər. Bu isə Ermənistanda universitetlə əmək bazarı arasındakı əlaqənin zəifliyindən irəli gəlir. Bazar iqtisadiyyatının gücləndiyi və işə götürənlərin tələblərinin daim artdığı dünyada Ermənistan universitetlərinin verdiyi təhsil müasir dövrün rəqabətinə uyğun gəlmir.

Ermənistanda Nikol Paşinyanın hakimiyyətə gəlməsi ilə nəticələnən "küçə inqilabı"nın əsas dəstəkverici qüvvəsi tələbələr idi. Belə ki, S.Sarkisyanın xunta rejiminin ən çox ziyan vurduğu sahələrdən biri təhsil sistemi və zərərçəkənləri isə tələbələr idi. Davamlı artan qiymətlər, açıq-aydın reallaşdırılan dəhşətli korrupsiya bu rejimin əsas göstəriciləri idi. Tələbələr Nikol Paşinyanın rəhbərliyi ilə bir çox müsbət islahatların keçiriləcəyinə ümid etsələr də, seçkilər keçirildikdən sonra Ermənistan universitetlərinə mənfi təsir göstərən problemlərin həlli istiqamətində əsaslı bir dəyişiklik edilmədi.

Beləliklə, araşdırılan məsələlər göstərir ki, Ermənistan təhsil sistemi ağır böhran şəraitindədir. Ali təhsil bütün vətəndaşlar üçün əlçatan deyildir. İmkanlı şəxslər övladlarına təhsil verə bilsələr də, digərləri bu imkandan məhrumdurlar. Təhsil sistemində görünməmiş korrupsiya və rüşvətxorluq hökm sürür.

***Demoqrafik şərait və miqrasiya***

Uzunmüddətli demoqrafik dəyişikliklər-doğum göstəricisinin aşağı düşməsi, ölüm hallarının artması, əhalinin yaşlanması, işsizlik və köçün güclənməsi Ermənistanda ciddi demoqrafik problemlər yaratmışdır. Ermənistan Respublikasının Milli Statistika Xidmətinin 2021-ci il yanvarın 1-nə olan məlumatına görə, ölkənin daimi əhalisinin sayı 2 milyon 963 min nəfər olmuşdur. Şəhər əhalisinin xüsusi çəkisi 64%, kəndlərdə yaşayan əhalinin sayı 36% təşkil etmişdir. Daimi əhalinin 47,2%-ni kişilər, 52,8%-ni qadınlar təşkil edir.

Ermənistan hökuməti ölkədəki demoqrafik böhranı gizlətmək üçün rəqəmləri kifayət qədər saxtalaşdırmışdır və əslində Ermənistanda daimi yaşayan əhali daha

azdır. Rəsmi statistik rəqəmlərin müqayisəsini apararkən aydın olur ki, təkcə 2010-2016-cı illərdə Ermənistanda əhalinin sayı 8,5% azalmışdır. Qeyri-rəsmi məlumata görə, hal-hazırda Ermənistanda əhalinin sayı 1 milyon 500 mini keçmir [10].

Bu və ya digər səbəblərdən Ermənistanda doğum nisbəti azalmış, ölüm nisbəti isə artmışdır, bu da təbii artıma mənfi təsir göstərir. 2020-ci ildə təbii artım, yəni doğulanlarla ölənlər arasındakı fərq 1100 nəfər təşkil etmişdir. Bu əsasən İkinci Qarabağ müharibəsi və Covid 19 pandemiyası ilə şərtlənirdi. 2019-cu ildə isə təbii artım 9800 nəfər təşkil edirdi, bu 2020-ci il ilə müqayisədə 9 dəfə çoxdur. Ötən il ilə müqayisədə Ermənistanda ölüm nisbəti 0,9% artmış, doğum səviyyəsi isə 2,7% azalmışdır. Espertlərin fikrincə, son 25 ildə Ermənistanda doğum səviyyəsi 2 dəfə azalmışdır. Ümumiyyətlə, əhalinin təbii artımı 9,9% azalmışdır. Burada miqrasiya məsələləri də əsas rol oynamışdır. Miqrasiya üzrə ekspert Rubert Yeganyan qeyd etmişdi ki, bu göstəricilərə ilk səbəb aşağı əmək haqqıdırsa, ikinci əsas səbəb sosial-psixoloji amillərdir. Ermənistanda 90-cı illərdə sosial-iqtisadi problemlər, bu gün isə sosial-psixoloji problemlər üstünlük təşkil edir [11]. Bundan başqa ölkədə nigah sayının azalması qeydə alınmışdır. 2012-2016-cı illərdə evlənənlərin sayı 2769 və ya 14,5% azalmışdır. Boşanmalar isə 398 və ya 12% artmışdır. 1990-cı illərdə evlənənlərin sayı 28233, boşananların sayı isə 4347 olduğu halda, 2015-ci ildə evlənənlərin sayı 17603, boşananların sayı isə 3669 olmuşdur. 2016-ci il ilə müqayisədə 2017-ci ildə evlilik 6,5% azalmış, boşanmaların sayı isə 11,2% artmışdır. Evlilik və boşanma hallarındakı vəziyyətin əsas səbəbi ailə daxilində mövcud olan sosial-iqtisadi problemlər, yoxsulluq səviyyəsinin yüksək olmasıdır[12].

Ermənistanda demoqrafik vəziyyət böhrana və tədricən depopulyasiyaya yaxınlaşır, yəni ölüm səviyyəsi doğum səviyyəsini üstələyir. Depopulyasiyanın əsas səbəblərinə bir sıra amillər daxildir. Məsələn, XX əsrin 90-cı illərində dünyaya gələn uşaqlar hazırda evlilik yaşına çatmış gənclərdir, onlar ölkədə hökm sürən müharibə vəziyyəti və iqtisadi böhrana görə övlad sahibi olmaqdan imtina edir. Eyni zamanda əsas səbəblərdən biri miqrasiyadır [13].

Miqrasiyanın əsas səbəblərinə iqtisadi böhran, kütləvi işsizlik, korrupsiya, siyasi, psixoloji və nəqliyyat amilləri daxildir. Ermənistan Respublikası Statistika Komitəsi (əvvəllər Milli Statistika Xidməti) tərəfindən 2020-ci ildə nəşr olunan Statistik göstəricilərin metodoloji dəqiqləşdirmələrinə görə, hər bir inzibati vahidin daimi əhalisinin indeksi 2011-ci ildən formalaşmağa başlamışdır. Siyahıyaalma zamanı bu ərazidə daimi yaşayan, qeydiyyat zamanı mövcud olan və ya müvəqqəti olmayan şəxslərin ümumi sayı göstərilmişdir. Müvəqqəti olmayanların daimi əhaliyə daxil edilməsinə gəldikdə isə, Ermənistan Respublikasının Statistika Komitəsi belə bir izah vermişdir ki, bir ildən az müddət ərzində mövcud olmayan şəxslərin sayı daimi əhali sayına əlavə edilir [14]. Qeyd etmək lazımdır ki, SSRİ-nin dağılmasından sonra Ermənistanda demoqrafik vəziyyət pisləşməyə başladı. Ölkə sənayesinin öz fəaliyyətini dayandırması ilk növbədə iri sənaye birliklərinin şəhər və kəndlərdə müəssisə və filiallarının fəaliyyətlərinin dayanmasına gətirib çıxardı, bu da Ermənistanda kütləvi işsizliyin yaranmasına səbəb oldu. Yaranmış işsizlik Ermənistan vətəndaşlarının hər

gün davam edən kütləvi miqrasiyasının səbəbidir. BMT-nin məlumatına əsasən Amerika Pew Araşdırma Mərkəzi belə nəticəyə gəlib ki, Ermənistan əhalisinin 25%-i, təxminən 937 min nəfər Ermənistan sərhədlərindən kənarda yaşayır. Bu göstəricilərə görə, Ermənistan dünyada Bosnia və Hersoqovina, Albaniya və Yamaykadan sonra dördüncü yerdədir. Ermənistandan gedən miqrantların əksəriyyəti, təxminən 56%-i Rusiya Federasiyasında məskunlaşmışdır. Bu göstəricilərə görə Avropa ölkələri 15%, ABŞ və Kanada 9,5%, digər ölkələr isə 19,5% – təşkil etmişdir. Miqrantların əksəriyyəti bu ölkələrdə erməni icmalarının olmasına üstünlük verirlər. Ümumilikdə 2021-ci ilin I rübündə Ermənistanı 127 min insan tərk etmişdir və onların yarıdan çoxunu Rusiyaya gedən əmək miqrantları təşkil edir. Eyni zamanda 2021-ci ildə ölkəyə gələnlərlə gedənlər arasındakı fərq 2020-ci ilin eyni dövrü ilə müqayisədə 5 dəfə çoxdur. Miqrasiya xidmətinin rəhbəri Armen Kazaryanın fikrincə, 2021-ci ildə əmək miqrasiyası ilə yanaşı, sərhədlərin açılmasından sonra ölkəni tərk edənlərin sayının intensivləşməsinin səbəblərindən biri də müharibədən sonra yaranmış sosial-psixoloji vəziyyətdir [19]. Miqrasiyanın kütləvi hal almasının müxtəlif səbəbləri göstərilir [14]:

1. Həyat səviyyəsinin aşağı olması
2. İş şəraitinin uyğunsuzluğu
3. İşləmək üçün xaricdə daha yaxşı şəraiti əldə etmək fürsəti
4. Yaxşı təhsil almaq arzusu
5. İkinci Qarabağ müharibəsinin ölkədə yaratdığı sosial-psixoloji vəziyyət

Miqrasiya edənlərin əhalinin çox hissəsi ali təhsilli, iş qabiliyyəti olan insanlardır ki, onlar bu ölkədə iş tapmaqda çətinlik çəkirlər. Demoqrafik vəziyyətdə təhlükənin əsas göstəricilərindən biri məktəblərdə və universitetlərdə tələbə sayının ildən-ilə azalmasıdır. Ölkəni tərk edənlərin təxminən 30%-i universitet məzunu, 49%-i orta məktəb məzunudur. Sadəcə olaraq 21%-i təhsilsizdir [15].

Fridrix Elbert Fondunun Ermənistan bölməsinin gənclər arasında apardığı araşdırmaya görə başqa ölkələrə getmək istəmələrinin aşağıdakı əsas səbəbləri göstərilmişdir [16].

1. Həyat keyfiyyətini artırmaq istəyi – respondentlərin 35,6%-i
2. daha yaxşı iş imkanı əldə etmək – respondentlərin 30,8%-i
3. daha yaxşı təhsil almaq imkanı – respondentlərin 12,6%-i
4. şəxsi biznes üçün daha yaxşı imkanın mövcud olması – respondentlərin 4,2%-i

Beləliklə, Ermənistanda demoqrafik şəraitin müxtəlif səbəblərdən acınacaqlı vəziyyətə düşməsi onsuz da iqtisadi və sosial cəhətdən ağır olan şəraitinin demoqrafik baxımdan da böhran halına gəlib çatmasına səbəb olmuşdur.

***Nəticə***

Beləliklə, bütün yuxarıdakı məsələlərin təhlilindən belə bir nəticəyə gəlmək olar ki, Ermənistan düşmüş olduğu ağır iqtisadi böhrandan çıxmaq üçün daxili və xarici, o cümlədən iqtisadi siyasətini düzgün şəkildə həyata keçirmir.

Mövzunun araşdırılması zamanı bir sıra nəticələrə gəlinmişdir: 2020-ci ildə Covid-19 pandemiyası və İkinci Qarabağ müharibəsi nəticəsində yaranmış ağır sosial-iqtisadi vəziyyət Ermənistanın iqtisadiyyatına mənfi təsir göstərmişdir; iqtisadi artım tendensiyaları zəifləmişdir; müharibə iqtisadi böhranı daha da dərinləşdirilmiş-dir və əhəmiyyətli dərəcədə maddi itkilərə səbəb olmuşdur; Ermənistan Respublikası-nın dövlət borcu kəskin sürətdə artmışdır; yoxsulluq Ermənistanda əsas problemdir və yoxsulluğun aradan qaldırılması siyasətində ciddi çatişmazlıqlar vardır; məşğulluğun artırılması və işsizliyin azaldılması siyasəti hökumət tərəfindən səmərəli həyata keçi-rilmir; Ermənistanın təhsil sistemi də ağır böhran şəraitindədir. Təhsil sistemində kor-rupsiya və rüşvətxorluq halları hökm sürür; Ermənistanda həmçinin demoqrafik və-ziyyət böhran səviyyəsindədir. Miqrasiya halları ölkənin əsas problemlərindən biridir. Ermənistanda mövcud sosial-iqtisadi vəziyyət əhalinin həyat keyfiyyətini yaxşılaşdır-maq məqsədi ilə ölkəni tərk etmələrinə gətirib çıxarır.

**İstifadə edilmiş ədəbiyyat**


1. տնտեսական կոլապսի հավանականությունը հհ-ում. մի՞ֆ, թե՞ իրական սպառնալիք, https://www.luys.am/img/artpic/small/5330d854e7677d361266%D5%8F%D5%B6%D5%BF%D5%A5%D5%BD%D5%A1%D5%AF%D5%A1%D5%B6%D5%AF%D5%B8%D5%AC%D5%A1%D5%BA%D5%BD--07-07-2021-edited.pdf
2. Աղքատությունը Հայաստանում, https://ampop.am/poverty-in-armenia/
3. Սոցիալական պաշտպանություն և մանկական աղքատություն, https://www.unicef.org/armenia/
4. 2019-ին աղքատության մակարդակը Հայաստանում գնահատվել է 26.4%, https://hetq.am/hy/article/124867
5. Հայաստանում գործազրկության մակարդակը 17% է. ամենաբարձրը ԵԱՏՄ-ում, https://hetq.am/hy/article/134329
6. Հայաստանում գործազրկության ցուցանիշը ամենաբարձրն է ԱՊՀ-ում
7. Թարմացվել է` 04/05/2018, https://ampop.am/unemployment-in-armenia/
8. 2017 թվականի սեպտեմբերից 12-ամյա կրթությունը դառնում է պարտադիր, https://iravaban.net/168448.html
9. 12-ամյա պարտադիր կրթության հետ մեկտեղ պետք է փոփոխել ամուսնական տարիքը Ամբողջական հոդվածը կարող եք կարդալ այս հասցեով՝ , https://armlur.am/340058/
10. Հայաստանի ժողովրդագրական վիճակը ճգնաժամային է. Ծնելիությունը նվազում է, արտագաղթը՝ ավելանում .08.06.2015
11. Հայաստանի բնակչության թիվը. Նոր տվյալներ. 01.31.2017
12. Հայաստանի դեմոգրաֆիական ճգնաժամը. 28.03.2017 http://ampop.am/demographic-crisis-in-armenia/
13. Демографический кризис в Армении: причины и возможные выходы, 11.07.2019, https://jam-news.net/демографический-кризис-в-армении-при/?lang=ru
14. Միգրացիան Հայաստանում https://ampop.am/migration-in-armenia/

15. МИГРАЦИЯ ИЗ АРМЕНИИ НА ФОНЕ ФАНТАЗИЙ О НОВОЙ КОНФИГУРАЦИИ ВЛАСТИ. 08.07.2017, http://russia-armenia.info/node/41126
16. Հայաստանի Հանրապետության Սոցիալ-Տնտեսական Վիճակը 2017թ. Հունվար-Հունիսին. www.armstat.am/file/article/sv_06_17a-_520.pdf
17. 2020-ը Հայաստանը փակեց տնտեսական անկմամբ, https://www.azatutyun.am/a/31034295.html
18. հհ տնտեսության սոցիալ-տնտեսական զարգացումները 2021 թվականի հունվար-հուլիս ամիսներին, https://www.luys.am/img/artpic/small/15fde15e13a9baf9a23a%D5%8F%D4%B1%D5%91-1-7-25.08.2021.pdf

Այս տարվա առաջին եռամսյակում Հայաստանը լքել ու չի վերադարձել ավելի քան 55 հազար մարդ, 07.06.21, https://www.azatutyun.am/a/31344184.html

**Shargiya Imamali**

## SOCIO-ECONOMIC SITUATION IN ARMENIA

***Summary***

*The article analyzes the socio-economic situation in Armenia. It examines economic problems and factors affecting them, the social situation, the level of poverty and unemployment in the country, problems in education, demography and migration processes.*

*Recent profound socio-economic changes and upheavals in Armenia have had a significant impact on the socio-psychological landscape of Armenian society. The analysis shows that despite all the measures and efforts taken in the social and economic spheres, it was not possible to achieve the desired result.*

***Keywords:*** *Armenia, socio-economic situation, unemployment, poverty, education, demography, migration*

**Шаргия Имамали**

## СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ ПОЛОЖЕНИЕ В АРМЕНИИ

***Резюме***

*В статье исследована социально-экономическая ситуация в Армении. Были изучены экономические проблемы и факторы, влияющие на них, социальное положение, уровень бедности и безработицы в стране, проблемы в сфере образования, демография и миграционные процессы.*

*Проведенное исследование показывает, что, происходящие в Армении в последнее время глубокие социально-экономические потрясения оказали значительное влияние на социально-психологическую картину армянского общества. Несмотря на все меры и попытки, предпринимаемые в социально-экономической сфере, достичь необходимого результата не удалось.*

***Ключевые слова:*** *Армения**,** социально-экономический статус, безработица, бедность, образование, демография, миграция*

Daxilolma tarixi: 27.06.2021
Çapa qəbul edilmişdir: 17.09.2021